**KÖNÜL AYDIN NƏHMƏTOVA**

# Dəyanət

**"Elm və təhsil"**
**Bakı – 2015**

**Ədəbi redaktor:** **Məhərrəm Qasımlı**
*Azərbaycan Respublikası*
*Dövlət mükafatı laureatı,*
*filologiya üzrə elmlər doktoru, professor*

**Könül Aydın Nəhmətova. Dəyanət. Bakı, 2015, 48 səh.**

Kitab maşın qəzası nəticəsində Kür çayına düşən zaman yanındakı şagirdi xilas etmək naminə həyatını qurban verən Sabirabad royon N.Gəncəvi adına 5 nömrəli məktəbin müəllimi Əhliman Hüseynovun xatirəsinə həsr olunub. Kitabda müəlifin hadisəni tədqiq edərək faktlar əsasında yazdığı məqaləsi, hadisənin bədii təsviri olan "Dəyanət" hekayəsi, saytlarda verilən məlumatlar yer alır.

$\frac{4602000000}{N098-2015}$ *грифли няшр*

**© «Elm və təhsil», 2015**

***Sabirabad rayon Nizami Gəncəvi adına 5 nömrəli məktəbin texnologiya müəllimiƏhliman Hüseynovun xatirəsinə ithaf olunur.***

***Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,***
***Nə də ulduzlar kimi parlayıb sönməməkdir.***
***Bunun üçün ölümə bir atılım gərəkdir,***
***Atıldıqdan sonra da bir daha dönməməkdir.***

***Səməd VURĞUN***

## SON SÖZƏ ÖN SÖZ…

"Azərbaycan müəllimi" qəzetinin baş redaktoru otağına çağırdı məni:

- Könül, indicə Nazirlikdən zəng etmişdirlər. Belə bir məlumat var ki, Sabirabadda müəllim şagirdlə düşüb çaya, uşağı xilas edib, amma özü həlak olub. Təcili məqalə hazırlamaq lazımdır. Zəng elə, öyrən gör hadisə necə olub. Bu nömrəyə yazı hazırla. Çatdırarsanmı?

- Əlbəttə, Bayram. Amma zəng eləmək nədir? Müəllim canından keçib insan uğrunda. Hadisə yerinə getmək lazımdır. Mən elə sabah yola çıxaram.

- Bu lap yaxşı olar.

Səhər tezdən həyat yoldaşım Azad Nəhmətovla taksi tutub Sabirabada yola düşdük. Yolda hadisə ilə bağlı sabirabadlı sürücünü söhbətə çəkdik:

- Kürdə müəllimin həlak olması haqqında eşitməmisiniz?

- Eşitmişəm. Əhliman müəllimi deyirsiniz?

- Hə... Hadisə necə olub?

- Əhliman müəllim hər gün məktəbə dörd uşaq gətirirdi kənddən öz maşınında. Həmin gün uşaqlardan ikisi xəstə olub, bir ailədən də iki bacı gəlməli imiş. Biri həmin gün xəstələnib, məktəbə getmək istəməyib. Bir qız uşağını gətirməli olub. Bilmirəm necə olub, amma Kürün üstündə müəllim maşını idarə edə bilməyib, düşüb çaya. Uşaq kürəyində uzun məsafə üzüb, qışqırıb adamları köməyə çağırıb. Bir cavan oğlan - Dəyanət özünü atıb suya, uşağı son anında xilas edə bilib.

- Kimin oğludur Dəyanət?

- Bir imkanlı adamın oğludur. Çətin görüşərsiniz onunla. Bir az adamları özlərindən kənar saxlayan ailədir. İmkanlıdırlar də...

Susdum. Söhbət sıxdı ürəyimi. Faciəli hadisənin təfsilatını öyrənmək üçün ilk dəfə idi ki, yola çıxırdım. Həm də soyuq havada müəllimlə uşağın sudakı halını təsəvvürümə gətirməyə bilmirdim. Bu da məni isti maşının içində çox üşüdürdü. Elə bilirdim, ayaqlarım suyun içindədir. Qısıldım gödəkçəmin içinə, Sabirabada qədər susdum...

Sabirabad Təhsil Şöbəsinin önündə dayandı taksi. Yağış yağırdı çiskin-çiskin, amma mən elə üşüyürdüm, dişim dişimə dəyirdi. Titrəyirdim leysan altında iliyinə kimi islanmışlar kimi...

Şöbədən Pəhləvan müəllim qarşıladı bizi. Maşınla yaxında yerləşən 5 nömrəli məktəbə getdik. Məktəbin direktoru Bilal müəllim həyəcan, kədər, minnətdarlıq içində çıxdı qarşımıza:

- Xoş gəlmisiniz. Nazirliyin diqqəti çox mütəəssir etdi bizi. O boyda yolu əziyyət çəkib gəlmisiniz.

- O nə deməkdir, Bilal müəllim? Borcumuzdur. Vəzifəmizdir.

Sözlər mahiyyətsz, anlamsız kimi çıxırdı dilimdən...

Bilal müəllim az qala Əhliman müəllimin məktəbdə ayaqları dəydiyi bütün sinif otaqlarını gəzdirdi bizə. Başına sığal çəkdiyi bütün şagirdlərini yığdı başımıza. Ürək sözlərini şagirdlər göz yaşlarında axıtdılar. Qarşımıza qoyulan çayı göz yaşı ilə daşan gördüm...

Müəllim yoldaşları sızladılar. Könül susdu sanki, danışan yer üzünü göz yaşına qərq edən buludlar oldu. Təsadüfdürmü, nədir, göylərin də ağladığını gördüm ... Günəş də gülümsəmədi adamların göz yaşı ürəklərə arx açanda...

Məkətbdən ayrılıb Kürün üzərinə gəldik. Maşın körpünün üstünə burulanda elə bildim, elə indicə, gözümün önündəcə Əhliman müəllimin maşını yuvarlandı çaya. Hələ asfaltın üzərinə maşının son anında asfaltı cırmaqlayıbmış kimi, saldığı iz beynimdə şram açdı...

Sabirabadın Cavad kəndinə gedib Əhliman müəllimin ailəsini ziyarət etdik, beli iki büklüm olan ağbirçək anasının göz yaşlarının altına tutduq ovcumuzu, silməyə gücümüz çatmadı...

Rayona dönəndə Bilal müəllim Dəyanətə zəng etdi:

- Alo, Dəyanət Bakıdan jurnalist gəlib, səninlə görüşmək istəyir.

Bilal müəllimi diqqətlə dinləyirdik Azad da, mən də.... Sürücüdən onun haqqında aldığımız informasiya məcbur edirdi bizi buna. Eşitdik ki, Bilal müəllim deyir:

- Yaxşı, elə isə biz səni burada gözləyirik.

Telefonu qapayıb dedi:

- Dəyanət deyir ki, əziyyət çəkməsinlər. Hardasınızsa, gözləyin, yarım saata özüm gəlirəm.

Bir azdan gözəl, həyalı bir simaya malik mütənasib bədənli, orta boylu, alagöz bir oğlan qarşımızda idi. Bütün suallarımıza fədakarlığından xəbərsizmiş kimi cavab verdi. Adi və sadə....

Azadla bir-birimizin üzünə baxdıq mənalı-mənalı. Və yalnız ikimiz anladıq bu baxışın mənasını...

Şəhərə dönmək istəyimizi bildirəndə Dəyanət maşına doğru addımladı:

- Gəlin əyləşin, mən aparım sizi, qoyum, qayıdım.

Nə qədər israr etsə də, razı olmadıq. “Tanışımız var, götürəcək bizi”, deyə inandırıb yola düşdük.

***

Çətindir üzərindən altı ay keçəndən sonra da həmin günü xatırlayıb xatirə kimi yazmaq. Lap elə həmin günün özü kimi ağırdır.

Ön sözü yazmağa məni məcbur edən bu ayların hər bir günündə gözlədiyim xəbər oldu. Bir gün facebook səhifəmi açanda bir mesaj gördüm.

Marat Əhmədov:

- “Əhliman müəllimin cəsədi tapılıb.

- Yalan xəbərmiş...”

Çox təəssüflənsəm də, cavab yazdım, həm də gerçək bir ümidlə. Ümid etməyə haqqım da vardı. Bunun üçün dua edən dillər, könüllər çoxdu:

“- İnşallah, doğru olar.”

Bu yanlış xəbərin üstündən həftələr keçdi. Bir gün iş yerimdə

- AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutnda kompyuterin qarşısında oturub işləyirdim. Facebook səhifəm də açıq idi. Bir mesaj gəldi yenə Maratdan, adi mesajlar kimi. Amma adi deyilmiş:

- "Salam, Əhliman müəllimin cəsədi yarım saat əvvəl tapıldı.

Sanki məni ildırım vurdu. Sanki elə indicə aldım o xəbəri ki, Kürə düşən müəllim uşağı xilas etdi, özü həlak oldu... Otaq başıma döndü, gözlərim ürəyimə axıtdı göz yaşını adamlardan utanıb.... Özümü ələ alıb içimdə həm şükür, həm də sızıltı yazdım:

- Çox şükür. Çox sevindim...

Sevindimmi?..

- Gör nəyə sevinməli olduq?! Amma yenə şükür. Haradan tapıldı?

- Sabirabadın Məmişlər kəndinin yaxınlığından ."

Bir azdan Bilal müəllim özü zəng etdi:

- Salam, Könül xanım. Necəsiniz? Sizə xəbərim var. O hadisəni sizə xatırlatmaq nə qədər çətin olsa da, deməliyəm ki, Əhliman müəllimin cəsədi tapıldı.

Həqiqətən də, bu hadisənin dilə gətirilməsi hər dəfə eyni ağrıları oyadırdı ürəklərdə. Elə o ağrıyla da cavab verdim:

- Salam. Şükür Allaha. Bilal müəllim... Bilirəm.

Təəccübləndi:

- Haradan?

- Marat yazdı mənə.

- Oğlum məndən sədaqətlidir. Başım qarışıq idi. Amma ilk zəng etdiyim adam sizsiniz, Könül xanım.

- Təşəkkür edirəm, Bilal müəllim. Allahın yanında əziz olasınız.

-Sizdən oldu bunlar...

- Əstəğfrullah... Mən kim oluram?!.  Allahdan oldu. Bir də dövlətin, Təhsil Nazirliyinin qayğısıdır.

Bilal müəllim bu günə kimi unuda bilmir mənim bu hadisəylə bağlı könül yanğımı... Həm də o təşəbbüslərə işarə edir hər danışanda ki, hadisəni bir an unutmayıb sona qədər diqqətimdə saxladım, sadəcə...

"Azərbaycan müəllimi" qəzetindən müxbir kimi gedib hadisəni araşdırıb məqalə hazırladım. Həm də müəllimin yaşadığı evin şəraitsizliyini görüb etinasız qala bilmədim. Evin şəraitsizliyini açıq əks etdirən fotolar çəkib Təhsil Nazirliyinə məsul şəxslərə göndərdim qayıdan kimi. Ətraflı yazdım həmçinin bu şəraitsizliklə bağlı. Həm də müəllimin cəsədinin axtarılmasında barkasa ehtiyac vardı ki, bunu da operativ olaraq Təhsil Nazirliyini qarşısında problem kimi qaldırdım. Rayonla da əlaqəmi kəsmirdim. Demək olar ki, hər saat içində əlaqə saxlamağa çalışırdıq. Gecikirdi barkas...Təhsil Nazirliyinin məsul nümayəndəsi Fövqəladə Hallar Nazirliyinə müraciət olunduğu haqqında məlumat verirdi. Axır səbrim tükəndi. Götürüb telefonun dəstəyini özüm Fövqəladə Hallar Nazirliyinə zəng etdim:

- Alo, salam. "Azərbaycan müəllimi" qəzetinin müxbiri Könül Nəhmətovadır sizi narahat edən. Sabirabadda Kürdə həlak olan müəllimin cəsədinin axtarışı üçün sizə barkas göndərilməsi ilə bağlı müraciət olunub. Amma neçə sutkadır, hələ bir xəbər yoxdur. Barkas niyə göndərilməyib?

Hadisənin canımda buraxdığı yanğı səsimdən qalxırdı sanki.

- Xanım, biz göndərmişik. Yaxın müddətdə xəbəri gələr, narahat olmayın.

Həqiqətən də, bir saatdan sonra Bilal müəllim zəng etdi:

- Könül xanım, narahat olmayın, barkas gəldi artıq, işə başlayıb.

Barkas da günlərlə aradı cəsədi, axır ümidini üzdü, döndü geri... Amma katerlər kəsmədi ümidini, ailəsi də bir an belə dayanmadı axtarışdan. Axır Allahın mərhəməti ilə tapıldı cəsəd 3may 2015-ci il günorta saatlarında bir tilovun ucuna ilişərək...

Qismətə bax: İnsanın suya atdığı tilova bir gün özünün də keçməsi varmış bu oyunbaz dünyada...

Təhsil nazirinin əmri ilə Əhliman müəllimin həyatində yeni bir ev tikildi. Nazirliyin nümayəndələri dəfələrlə müəllimin ailəsini ziyarət etdilər, maddi yardım göstərdilər. İndi müxbir vəzifəsində çalışmasam da, eşidəndə ki, Nazirliyin nümayəndələri müəllimin yas mərasiminə gediblər, mütəəssir oldum.

Azərbaycan Təhsil naziri Mikayıl Cabbarovun da yaddaşında bu hadisənin xüsusi iz salması Əhliman müəllimin çalışdığı məktəbin kollektivinə, ailəsinə, heç bir fərdinin təhsildən kənarda qalmayan bu cəmiyyətin bizi kimi sıravi vətəndaşlarına da böyük dəstək oldu.

Belə bir faciəli hadisənin üzərindən Sabirabad rayon Nizami Gəncəvi adına 5 nömrəli məktəbin direktoru Bilal müəllimlə qurulan münasibətimiz bu günə kimi də yalnız könül sızıltısıyla davam edir...

**Könül Aydın Nəhmətova**
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Məhəmməd Füzuli adına***
***Əlyazmalar İnstitutunun böyük elmi işçisi***

# ÖZÜNÜ ŞAGİRDİNƏ QURBAN VERDİ

*Könül NƏHMƏTOVA,*
*"Azərbaycan müəllimi",*
*konul.nehmetova@mail.ru*



**Sabirabad şəhərinin Nizami Gəncəvi adına 5 nömrəli orta məktəbinin texnologiya müəllimi, 2 noyabr 1957-ci il təvəllüdlü Əhliman Hüseynovun əfsanələşən fədakarlığının gerçəklərini zaman təhriflərə uğratmasın deyə qələmə almaq, tarixin yaddaşına yazmaq üçün hərtərəfli araşdırmağa qərar verdik. İnternet saytlarından başlayaraq, yerli əhalinin danışdığı söhbətlərə ehtimallar, gümanlar da qarışdığını nəzərə alıb, hadisə yerində olmağı, mərhum müəllimin ailəsi, yaxın dostları, müəllim yoldaşları, şagirdləri ilə görüşməyi lazım bildik. Bütün söhbətlərin içindən yalnız təsdiqini tapmış faktlara əsaslanmaqla üçüncü sinif şagirdi Güldəstə Faiq qızı Hüseynovanı xilas etmək naminə öz həyatını qurban verən Əhliman Hüseynovun adını bir müəllim kimi əbədiyyətə qovuşduran son hekayətini oxuculara olduğu kimi təqdim edirik.**

**Hər gün keçilən yolda son iz...**

Sabirabad rayonunda Kür üzərində tikilən yeni körpüdə bir müəllim ömrünün son addımları maşın təkərinin asfalta çəkdiyi dərin bir iz kimi qaldı... Şahidi olduq dipdiri alacalanmış gözlərimizlə, yaddaşımıza cızıldı o iz elə körpünün üzərində qalmış dərinliyi ilə.

5 dekabr 2014-cü il tarixində Sabirabad Rayon Təhsil Şöbəsindən Nizami Gəncəvi adına 5 nömrəli məktəbin direktoru Bilal Əhmədova zəng olundu: "Sizin məktəbdə Əhliman müəllim işləyirmi?". "Bəli" cavabını verən direktor belə bir acı, sarsıdıcı xəbər aldı: "Əhliman müəllimin maşını Kürə düşüb, yanındakı uşağı xilas edib, özü həlak olub". Həyatını Kür qırağında keçirən Əhliman müəllimin iş yoldaşları buna inanmaq istəmədilər. Bunu yenə bir zarafat kimi qəbul etdilər. Məktəbin texnologiya müəllimi, Əhliman müəllimin uşaqlıq dostu, qohumu, həmkarı Balaxan Rəsulov uzun illərdən qalma bir zarafatı bir gün əcəl kimi qəbul etmək məcburiyyətində qalacağını ağlına da gətirməzdi: "O, həmişə balıqçılıqla məşğul idi. Zarafat edərdik ki, düşərsən suya. Dərsə gecikəndə zarafat edərdik ki, yəqin suya düşüb. Həmin gün Bilal müəllim Əhliman müəllimin suya düşüb həlak olduğunu deyəndə yenə zarafat kimi qəbul etdik. Amma təəssüf ki, artıq bu, zarafat deyildi...". Məktəbin bütün müəllimləri, şagirdləri dərin yasa batıb, amma ailəsində hələ hüzr məclisi qurulmayıb Əhliman müəllimin. Çünki cəsədi hələ də tapılmayıb. Kürdə dörd kater gecə-gündüz müəllimin cəsədinin axtarışı ilə məşğuldur. Oğullar, qohumları və kəndin kişiləri 12 gündür ki, soyuq havada Kürün sahillərində dolaşmaqdan əldən düşüblər.

Görmüşük, insanın sağ qayıtmasına qurban deyərlər, amma Əhliman müəllimin artıq üç övladını da itirmiş qoca anası oğlunun cəsədinin tapılmasına qurban deyib. Mərhum müəllimin anasının, həyat yoldaşının, qızlarının göz yaşlarına şahid olmaq unudulmaz acı xatirədir.

Əhliman müəllimin xilas etdiyi üçüncü sinif şagirdi Güldəstə Hüseynovanın nənəsini də müəllimin evində gördük. Uşaqla görüşmək istəyimizi biləndə həkimlərin icazə vermədiyini söylədi. Amma özü hadisə haqqında bizə məlumat verdi:

- Əhliman müəllim 5 nömrəli məktəbdə işlədiyi müddətdə 20 il Cavad kəndindən təxminən 5-6 kilometrlik yolu hər gün piyada gedib. Son dövrdə övladlarının köməyi ilə 07 markalı maşın alan müəllim qonşuluqda yaşayan qohumunun iki övladını da özü ilə götürüb Mirzə Ələkbər Sabir adına 1 nömrəli məktəbə gətirirdi. Təsadüfdənmi, qismətdənmi həmin gün Hüseynovların kiçik qız xəstə olduğu üçün məktəbə gedəsi olmayıb. Əhliman müəllim yalnız Güldəstəni özü ilə götürməli olub. Kürün üzərindəki yeni salınmış körpüdən keçəndə maşın asfalta dərin bir iz salaraq dəmir məhəccəri aşırıb suya düşüb. Hadisənin hansı səbəbdən baş verdiyini heç kim dəqiq bilmir. Yalnız hamının təsdiq etdiyi bir gerçək odur ki, həmin gün körpünün üstü nazik bir buz təbəqəsi ilə örtülmüşdü. Yol sürüşkən idi. Güldəstənin nənəsinin dediyinə görə, uşaq yalnız onu xatırlayır ki, çaya düşəndən sonra maşında Əhliman müəllim ona deyib: "Qızım, düşdük suya, çantanı çıxar kürəyindən". Maşının qapısını açıb uşaqla bərabər atılıb suya. Uşağı boynuna alıb körpüdən 500 metrə qədər məsafəyədək üzərək sahilə yan almağa çalışıb. Amma Kürün suyu gur olduğundan və çox soyuq olması səbəbindən heç cür sahilə yaxınlaşa bilməyib Əhliman müəllim. Fəryad edərək səsini yoldan keçənlərə duyurmaq istəyib. Yoldan ötən maşınlar dayanıb, adamlar axışıb Kürün sahilinə, lakin onu xilas etmək hamıya mümkünsüz görünüb. Hamı bir-birindən kömək istəsə də, kimsə cürət edib suya girə bilməyib. Yalnız iyirmi iki yaşlı bir gənc oğlandan başqa...

**Adını doğruldan bu gənc kimdir?**

Son nəfəsinə qədər uşağı xilas etməyə çalışan müəllimin səyini davam etdirən gənc oğlanı soraqlayıb tapmaq istədik. Bunu eşidən gənc yubanmadan görüşümüzə gəldi. Orta, yaraşıqlı bir oğlan durdu önümüzdə. Adı Dəyanət olan bu gənc ədəbli, təmkinli, yetkin ədaları ilə də diqqətimizi çəkdi. Haqqında eşitdiklərimizin və ilk görünüşdə yaratdığı təəssüratdan düşündüyümüz bu oldu: Haqlı olaraq deyirlər ki, ad insanın xarakterinin formalaşmasında rol oynayır.

Şıxəliyev Dəyanət Maqsud oğlu 1993-cü ildə Sabirabadın Türkədi kəndində anadan olub. Ailənin beş övladının ikincisidir. Ramil Məmmədov adına Türkədi kənd tam orta məktəbini bitirib. Orta təhsillidir. 2012-2013-cü illərdə əsgərlik xidmətində olub. Uşaqlıqdan Kürdə üzməyi öyrənib. Sonra Sabirabad rayonu Olimpiya Kompleksində üzgüçülüklə, cüdo ilə məşğul olub. Hazırda Sabirabad şəhərində ticarətlə məşğuldur.

Dəyanət: "O anda xilas etməkdən başqa heç nə düşünmədim..."

Dəyanət hadisənin gerçəklərinin ən yaxın şahididir. Buna görə də həqiqətləri onun özündən eşitmək istədik: "Adətən, mən işə tezdən getmirəm, amma həmin gün düşündüm ki, işim çoxdur, evdən tez çıxdım. Səkkizə qalmışdı, maşında termometrə baxdım, gördüm mənfi doqquz dərəcə soyuq var. Elə o anda körpüyə çıxmağıma az qalmışdı, gördüm ki, dəmir məhəccər düşdü suya. Maşının da düşdüyünü bilmədim. Sonra gəlib yaxınlaşanda gördüm ki, iki maşın dayandı körpüdə. Mən də dayandım. Gördüm ki, suya maşın düşüb. Gözümüz önündə yavaş-yavaş batmağa başladı, bu anda iki nəfər çölə çıxdı. Necə çıxdıqlarını görə bilmədim. Sahildə hamı bir-birinə qışqırırdı ki, gəlin kömək edin. Amma bilmirdilər ki, necə kömək etsinlər, Kürün ortası.., soyuq... Gördüm ki, kömək edən yoxdur, səki ilə qaçdım üzü aşağı. Yüz metr gedəndən sonra gördüm ki, bir kişinin son nəfəsidir,

çağırır ki, kömək edin. Gödəkcəmi, köynəyimi çıxarıb atdım özümü suya. Bilmirəm, necə üzüb çatdım onlara. Yaxınlaşanda gördüm, artıq kişi donub. Uşaq yarım metr ondan arxada qalıb. Uşaq "Əmi, mənə kömək elə" deyib yapışdı boynumdan. Onu boynuma atıb, başladım sahilə üzməyə. Sahilə doğru yaxınlaşanda bir az qorxdum. Gördüm, soyuq kəsir məni. Çünki yüz əlli metr axmışdıq. Axan zaman bir az dayanırdım deyə, su məni dondururdu. Otuz metr qalmış qışqırdım ki, ay camaat, siz özünüz də gəlin. Nə qədər qışqırdım gəlmədilər. Gördüm onlardan bir kömək olmayacaq, yenə özümdə güc toplayıb üzməyə başladım. Sahilə iki metr qalmış mənə ip atdılar. İki dəfə atdılar, birincidə qolumun yanına düşdü, tuta bilmədim. İkinci dəfə atanda qoluma düşdü, tutdum ucundan, çıxdım sahilə. Uşağı verdim camaata, apardılar xəstəxanaya. Məni də bükdülər gödəkcəyə, oturub maşına getdim evə".

"Suya atılan zaman nə düşünürdünüz, qorxu keçirmədiniz ki" sualımıza Dəyanət cavab verdi ki: "Həmin an xilas etməkdən başqa heç nə düşünmürdüm. Qorxsaydım, atılmazdım ki?..".

Dəyanətin söhbəti mənə Abdulla Şaiqin "Daşqın" hekayəsini xatırlatdı. Sabirabadda biz də bədii əsərlərdə təsvirini gördüyümüz ürəkli həyat qəhrəmanlarından biri haqqında şahidlərdən eşitdik, digəri ilə yaxından tanış olduq: Dəyanət!

Yəqin ki, bu hadisə Azərbaycan müəlliminin və Azərbaycan gəncliyinin ruhunu, fədakarlığını, dəyanətini mənəviyyatını və saflığını əks etdirən kövrək duyğulu bir salnamə kimi hələ çox danışılacaqdır.





Tərcümeyi-hal
Mən Hüseynov Əhliman Ağalar oğlu,
azərbaycanlı, 1957-ci ildə Sabirabad rayonu-
nun Cavad kəndində anadan olmuşam.
Ailəmiz 5 nəfərdən ibarət olub, atam
1960-cı ildə vəfat edib, anam 2 bacım və
mən.
Mən Hüseynov Əhliman Ağalar oğlu
1965-ci ildə Sabirabad rayonunun Cavad
kəndində orta məktəbin I sinfinə daxil olmu-
şam. Həmin X sinfini 1975-ci ildə bitirmişəm.
1975-ci ildən əmək fəaliyyətinə başlamışam.
1976-1978-ci illərdə hərbi xidmətdə olmuşam.
1979-cu ildən, 1985-ci ilə qədər müxtə-
lif təşkilatlarda fəhlə briqadiri vəzifə-
sində çalışmışam.
1985-ci ildən pedaqoji sahədə çalışmı-
şam. Əvvəl Sabirabad şəhəri 174 saylı Texni-
ki Peşə məktəbində istehsalat tə'limi us-
tası vəzifəsində işləmişəm. 1994-cü ildən
isə Sabirabad şəhər N. Gəncəvi adına 5 say-
lı orta məktəbində hal-hazıra kimi mü-
əllim vəzifəsində çalışıram.
Xüsusi orta təhsilim var. Ailəliyəm.
İki oğlum, iki qızım var. Övladlarım-
dan böyüyü Pedaqoji Universitetdə oxu-
yur. İki övladım məktəblidir. Böyük oğ-
lum hərbi xidmətə hazırlaşır.



















***Könül AYDIN Nəhmətova***

## DƏYANƏT

…Suyun içində idi. Su idi mi, yoxsa bədənini buzun içində dondururdularmı, anlaya bilmirdi. Dörd bir yanı buz kəsilmişdi. Donurdu, əl-qol atırdı, amma qurtula bilmirdi. Qəfil, hövlnak  yuxudan ayılmış, qan-tər içində yorğanın altında gördü özünü. Yuxu idimi, ya gerçəkmi?!. Hələ də ayırd edə bilmirdi həqiqətlə xəyalı, yuxu ilə gerçəyi… Əlini sinəsinə toxundurdu, maykası su içində idi, sanki həqiqətən suyun içindən çıxmışdı indicə. Yorğanı üstündən bir azca araladı. Soyuq intizarda imiş kimi, doldu köksünə. Tez yorğanı boğazına qədər çəkib yenidən isinməyə çalışdı.

- Ana! – deyə çağırdı. Səs gəlmədi. Bir az da hündürdən:

- Ana, ay ana!

- Nədi, Dəyanət? – anası qapıda göründü.

- Suyun içindəyəm, tərləmişəm… Mayka ver, dəyişim, üşüdürəm, - deyib bir az da yorğanı çəkdi çənəsinin altına.

- Niyə üşüdürsən? Birdən soyuqlamış olarsan? Görüm qızdırman yoxdur ki,- deyib anası yaxınlaşdı çarpayıya. Əlini qoydu Dəyanətin alnına. Qəfil əlini çəkdi, sanki isti bir sobaya toxunubmuş kimi:

- Bu nədir, ədə?!. Elə bil buz kimi sudan çıxarıblar səni?! – deyib təəccüblə dodağını büzdü…

Dolabdan mayka götürüb yenidən asta-asta öz təmkinli yerişi ilə çarpayıya yaxınlaşdı.

- Bir az tez ol ey.., ana, - dondum.

- Caan...

- Ay qız, hardasan, işə tələsirəm, - deyə, atasının qonşu otaqdan səsi gəldi.

- Sən dəyiş, atanı yola salım..,- deyib otaqdan çıxdı. Qapını ardınca bərk-bərk çəkdi, sanki kimdənsə qoruyurdu otağı…

Dəyanət yorğanı üstündən çəkmədən maykasını dəyişdi. Hətta yorğanın mələfəsi o qədər islanmışdı ki, təkrar onu üzərinə çəkmək istəməyib kənara atmalı oldu. Bərk üşüdü, bütün bədənindən bir titrəmə keçdi. Çarpayının yanındakı siyirmənin üstündən qalın göy köynəyini götürüb tələsik əyninə geydi. Paltarlarını geyib güzgünün önünə keçdi. Diqqətlə üzünə baxdı. Sanki nəsə öyrənməyə çalışırdı. Iri, ala gözlərinin iti nəzərləri enli sifətində gəzdi. Arxaya meylli qara gur saçları alnında islanıb qıvrılmışdı. Həmişə təmkinli baxışları indi nədənsə təlaşlı idi. Balaca dodaqları soyuqdan sanki büzüşüb, bir az da balacalaşmışdı, həm də gömgöy göyərmişdi. Çox üşüyən olmasına baxmayaraq, bu halına təəccübləndi. Heç vaxt belə olmamışdı. Otaq da o qədər soyuq deyildi. Bir az güzgünün önündə nəzərləri bir nöqtədə donub qaldı… Nə idi o soyuq su?... Yuxu idimi? Yuxu idisə, niyə özü də bu qədər islanmışdı? Əlini boynunun ardına atdı. Burada da saçları yamyaş idi, bütün bədənini üşüdürdü, sanki boğazına qədər suya düşmüşdü. Bir şey anlaya bilmədi yenə...

- Eh, nə isə.., - pıçıldayıb fikirli-fikirli əli ilə havanı yarıb tələsik otaqdan çıxdı.

Kaminin həzin-həzin çatıltısı özünə sarı çağırdı onu sanki… Yaxınlaşıb əllərini ovuşdurdu.

- Nə olub, ədə, özünü yenə verdin istiyə. Hava çox soyuqdur, çölə çıxanda soyuq olar, - stolun arxasında oturub buğlana-buğlana qaynar çayı qurtumlayan atası narazı bir səslə dilləndi.

- Bir elə idmana da getdin, üzgüçülüyə də, adam kimi havaya uyğunlaşa da bilmədin,- bir az da artıq tündləşdirdi səsinin tonunu.

Dəyanət daha artıq söz eşitməmək üçün sanki, cəld asılqandan gödəkcəsini götürüb əyninə geyinə-geyinə sürətli addımlarla qapıya doğru addımladı. Mətbəxdən otağa keçən ana təəccübləndi:

- Ay bala, hara gedirsən? Səndən çıxmayan iş, bu nə zamanın getməyidir belə erkəndən?

- İşim çoxdur! – səsinin tonu ilə sözü uzatmaq istəmədiyini sezdirdi Dəyanət.

- Ədə, xörək yemədən hara gedirsən? Otur, çay gətirim…

- Yox, işdə içərəm.., - deyib ayaq saxlamadan qapını açıb çıxdı bayıra.

***

Əhliman müəllim hər səhər olduğu kimi, Güldəstəgilin darvazasının önündə ağ rəngli VAZ 2107 markalı təzə aldığı, amma köhnə maşını saxlayıb siqnal verdi. Qapını açdı, hava soyuq idi, onsuz da maşının içi də qızmırdı. Oturduqca lap üşüyəcəyini düşünüb düşdü yerə. Beş-altı addım o yan-bu yana gəzişdikdən sonra darvazanın qapısı açıldı. Məktəbli formasında, doqquz yaşlı, qoşa hörüklü girdəsifət Güldəstə çiynində çantası qaça-qaça gəldi maşının yanına. Tövşüyə-tövşüyə dedi:

- Baba, bu gün bacım məktəbə getməyəcək. Xəstələnib. Bütün gecəni qızdırmadan sayıqlayırdı. Ona görə də anam heç yuxudan da durquzmadı onu.

Əhliman müəllim Güldəstənin babası deyil, atasının uzaq qohumudur. Baba olsa da, ağır həyat üzündə dərin izlər saldığından, saçları vaxtsız ağardığından lap qocaman baba yaşında görünürdü Güldəstənin nəzərində. Əhliman müəllim maşının arxa qapısını açdı. Güldəstə çantanı

belindən çıxarmadan üşüdüyündən özünü atdı maşının oturacağının üstünə. Amma elə bil, maşın da havanın soyuğundan donub, bir az daha artıq kəsici idi havası. Güldəstə əllərini qalın "bolonka" gödəkcəsinin qollarının içinə keçirdi çarpaz şəkildə. Büzüşüb bir az da içinə qısıldı. Əhliman müəllim maşına əyləşən kimi saata baxdı. Artıq səkkizə iyirmi dəqiqə qalırdı. Uşağı 1 nömrəli məktəbə qoyub işə getməlidir. İçində hesab aparırdı. Kənddən şəhərin mərkəzinə on beş dəqiqəlik yoldur. Qızı məktəbdə düşürüb işlədiyi 5 nömrəli məktəbə gedincə, deyəsən, yenə beş-on dəqiqə gecikəcək... Ayaqla kənddən şəhərə işə getdiyi günləri xatırladı. Elə bil, o zamanlar daha az gecikirdi... Babaxan müəllim yadına düşdü. Yenə çatan kimi eyni zarafatla qarşılayacaq: "Kürə düşüb boğulmusan, deyə düşündük."

Əhliman müəllim uşaqlıqdan Kürdə üzməyi hamıdan çox sevirdi. Demək olar ki, elə Kürün qırağında böyüyüb. İndi də isti, ya soyuq olmasına baxmayaraq, Kürün qırağında vaxt keçirməyi tərgitməyib. Boş vaxtı olan kimi tilovu götürüb balıq tutmağa gedir. Dostları nə vaxt axtarsalar, orada tapırlar onu. Ona görə də "Bir gün Kürə düşəcəksən" deyib gülüşürlər. O isə bu gülüşə təbəssümlə cavab versə də, ürəyindən qara qanlar axır... "Toxun acdan nə xəbəri var..." deyə, bəzən sanki dostlarını qınayır da ürəyində. Nə qədər bu sıxıntısı ilə bağlı məsəl var yadına düşür: "İçim özümü yandırır, çölüm özgəni." "Füzuli dərd əlindən dağa çıxdı, dedilər, bəxtəvər yaylağa çıxdı." İndi nədənsə, birdənbirə yenə həmin hislər doldu içinə. Sanki indicə kimsə yenə onunla həmin zarafatı etmişdi. Qəlbindəki sıxıntılar dərin bir inciklik kimi sızıldatdı bütün vücudunu. Qəfil hiss etdi ki, xəyala dalıb maşını asta sürür. Ayağını qaza basıb sürəti artırdı. Suqovuşanı keçərkən xəyalı bir az da artıq uzaqlara aparmaq istədi onu. Özünü ələ aldı. Sadəcə, sanki sonuncu dəfə baxırmış

kimi göz gəzdirib Arazla Kürün təbiətin çılpaq qoynunda qol-boyun olduğu geniş ərazini süzdü. Köksünü ötürdü, amma bilmədi nəyə təəssüflənir... Bilmədi niyə kövrəlti bu mənzərə onu... Hətta gözlərinin içinin bir az nəmləndiyini də hiss etdi. Uşaqlıqdan atasız böyümüş Əhliman müəllim bir anlıq Arazla Kürü ata və anası kimi canlandırdı nəzərində. Onların qol-boyun olduğu yerdə qoynuna atmaq istədi özünü. Amma havanın soyuq olmasını, işə tələsməsini özünə təsəlli kimi düşünüb sürətlə uzaqlaşdı bu mənzərədən.

***

Qara mersedes tutqun boz havada qara deyil, boz görünürdü, üzü dönmüş hava kimi. Kəndlərin arasından elə sürətlə gedirdi ki, elə bil, harasa tələsirdi. Sanki özünü təcili kiməsə çatdırmalı idi. Dəyanət bir anlıq özündəki bu təlaşı hiss etdi. Amma nəyin təlaşı olduğunun fərqinə varmaq istəmədən bədənindəki gərginliyi qaldırmaq üçün "mən hara tələsirəm" deyə düşünərək sakitləşməyə çalışdı. Hava elə boz idi ki, ürəyi sıxıldı. Bütün ətraf yamyaş, düzənlikdəki otların çürümüş rəngi də bir kəsafət kimi ruhuna siraiyət edirdi. Hava qəzəbli adamlar kimi, qaşqabağını töküb, üstünə gələnləri görkəmi ilə itələmək istəyirdi özündən. Dəyanət özünü zor-güc birinə doğru addımlayan adam kimi hiss edirdi. Hərdən ona elə gəlirdi ki, gözünə görünən bütün mənzərə, "dön geri, gir yorğanın altına, yat", deyir. Həm də öz-özünə düşünürdü ki, kim idi axı onu bu səhər tezdən evdən çıxmağa vadar edən. Məgər istədiyi qədər yatıb, yuxudan doyandan sonra gedə bilməzdimi işə?! Nə işi var idi ki, bu gün belə təcili, heç özü də niyəsini bilmədən erkəndən evdən çıxdı. Nə qədər düşünsə də, bədənindəki gərginlik çəkilmirdi. Elə bu səbəbdən maşının sürətini də azalda bilmirdi. Sanki o, özü deyildi tələsən, maşın idi...

Uzaqdan Kürün enli məcrası göründü gözünə. Elə uzaqdan da suyun qalxdığını, havadan daha artıq qəzəbindən boğulmuş rəngini sezdi. Bilmədi niyə, amma qəfil üşərgələndi. Yuxusu yadına düşdü ətrafdan duyulan soyuğun boz rənginin təsiri ilə. Yollara diqqət kəsildi. Indi nəzərinə çarpdı ki, hətta yollarda sular da buz bağlayıb. Kürün üzərində yeni salınmış körpüyə yaxınlaşdıqca bir az yoldan ehtiyat etməyə başladı səbəbini anlamadan. Gözucu maşındakı termometrə də baxdı. Çöldə mənfi doqquz dərəcə soyuq vardı. İnanmaq istəmədi. Qış gəlmədən dünəndən bu günə bir gecənin içində hava bu qədər soyumuşdumu? Amma yoldakı üzəri nazik təbəqə ilə buz bağlamış sular termometrin yanılmadığını təsdiq edirdi. Körpünün üzərində yolun sürüşkənliyinin təhlükəli ola biləcəyi ehtimalı ilə maşının sürətini azaltdı.

***

Ağ "07" isə öz sürətini heç bir çətinliyə təslim etmək fikrində deyildi sanki. Əhliman müəllimin xəyallarının sürəti ilə, ətrafı duymayan etinasızlığı ilə sürüşkən yollarda şütüyürdü önünə çıxan çökəklərin belə fərqində olmadan.

Güldəstə soyuqdan büzüşüb gödəkcəsinin içinə sıxılmışdı. Maşının sürəti onu beşik kimi yırğalayırdı. Qızcığazı yuxu aparırdı...

Maşın körpünün üstünə çıxanda da sürətini azaltmadı. Həyat necə öz amansız burulğanında sürükləmişdisə, Əhliman müəllimin ömrünü, maşın da eyni hikkə ilə onun üzücü xəyallarını öz önünə qatıb qovurdu. Maşının önündə təngənəfəs bir ömür yüyürürdü sanki... Hara? Niyə? Nə maşın bilirdi, nə də onu idarə edən.

Maşın Əhliman müəllimin havasızlıqdan nəfəsi çatmayan, ağlından qopub uçan xəyalları kimi uçurdu havada. Bu uçuş dayanmadı. Maşının ön təkərləri havada

ikən, arxa təkərləri sanki körpüdən var qüvvəsini toparlayıb caynaqları ilə yapışan bir nəhəng vəhşi kimi asfaltdan qopmaq istəmirdi. Amma gec idi, çox hissəsi havada olan maşın öz ağırlığına tab gətirməyib arxa təkərlərini də körpüdən qoparmalı oldu. Ağ "07" havada uçub Kürün ana qoynuna yuvarlandı. Arxasınca körpünün asfaltı üzərində dərin cırmaq yerləri qaldı. Əhliman müəllimin əlli beş il keçdiyi yollarda acı taleyinin son izi kimi...

***

Qara mersedes Kürün üstünə burulanda sürətini daha da azaltdı. Ağır maşın, sanki, çox da güvənli hiss etmirdi özünü bu yeni körpü üzərində. Köhnə taxta körpünün bu dəqiqə sınıb-dağılacağından ehtiyat edən adamın addım-addım yerişinə bənzəyirdi maşının sürəti. Qəfil irəlidə baş verən hadisə Dəyanətin duyğularını haqlı çıxardı. Dəyanət ani olaraq gördü ki, körpünün tən ortasında sol tərəfdə yaxınlaşıb toxunmağa belə adamın qorxduğu, toxunar-sansa, bu dəqiqə çaya düşəcək təsiri buraxan nazik dəmir məhəccərin yerindən qopub öz-özünə üzü aşağı düşdü, həqiqətən. Təəccüblənmiş adamlar kimi, bilmədi sürətini artırsın, ya donub yerində qalsın. İrəlidən körpünün üzərinə burulub qalxan maşınların yanaşı dayandığını gördü. O da sürətini bir az artırıb onların qarşısında saxladı maşını. Adamlar məhəccərin düşdüyü yerə toplaşmışdılar, qışqırırdılar. Dəyanət hələ də təəccüb qarışıq səhər yuxudan oyanandan beynində dolaşan qeyri-müəyyənlik içində körpünün açıq kənarına yaxınlaşdı. Gördükləri önündə sarsılaraq donub qaldı. Çayın gur, qara, qəzəbli dalğalarının qoynunda ağ jiqulinin yarıya qədər batdığını gördü. Hələ də gördüklərini anlamayacaq halda idi. Bir də gördü ki suyun üzərində iki nəfər dalğaların qolu üstündədir. Ətrafda hamı qışqırırdı:

- Kömək edin!.. Ə.., niyə durmusunuz?! Kömək edin...

Sanki hamı eyni sözü deyirdi, amma kimə deyirdilər, heç özləri də bilmirdilər. Axı burada özlərindən başqa kim var idi ki... Dəyanət də bilmirdi, onlar kimdən kömək istəyirlər. Birdən donu açılmış adamlar kimi hərəkətə gəldi Dəyanət. Körpünün kənarında hündürlüyünə görə asfaltdan o qədər də seçilməyən səkinin üzəri ilə üzü aşağı qaçmağa başladı. Qaçdıqca əvvəl gödəkcəsini soyunub üzərindən atdı. Vaxt itirmək istəməyən adamlar kimi qaça-qaça soyunmaqda davam edirdi. Mayka qarışıq göy yun köynəyini boğazından sıyırıb var qüvvəsi ilə kənara tulladı. Körpünü burulub Kürün sahilinə yamyaş torpağın üzərində çəkmələrini elə havadaca çıxararaq hərəsini hara gəldi buraxıb ayaqyalın çayın sahili ilə yüyürməyə başladı. Üşüməyi unutmuşdu Dəyanət, bədəni od tutub yanırdı indi...

***

Əvvəl maşının havada uçduğunu görən Əhliman müəllim müvazinətini itirmiş adamlar kimi nə baş verdiyini anlamadı. Maşın ağır gövdəsi ilə çayın qapqara köksünə çırpılanda ayıldı sanki. Maşının artıq batacağının fərqinə vardı qəfildən. Güldəstə arxa oturacaqda yuxulu olduğu üçün baş verənləri anlamırdı. Cismindən ruhu ayrılmaqda olan adamlar sayağı hər şeyi kənardan seyr etmiş kimi oldu anidən. Bir də onu eşitdi ki, Əhliman müəllim deyir:

- Suya düşdük, quzum, çantanı çıxar kürəyindən...

Çantanı kürəyindən çıxarıb oturacağın üstünə qoydu. Əhliman müəllim maşının ön və arxa qapılarını açıb bir əli ilə Güldəstədən yapışaraq suyun içinə çəkirdi uşağı. Qapı açılar-açılmaz içəri dolan soyuq qara sular Güldəstənin

ağlını vahiməyə elə bürüdü ki, varlığını dərk etməz hala gəldi...

Çayın dalğalarının qoynuna düşən müəllim Güldəstənin qollarını boynuna sarıdı. Əlləri ilə sıxdı ki, uşaq bərk yapışmalı olduğunu bilsin. Suyun çox soyuq olması Əhliman müəllimi vahiməyə gətirdi ki, görəsən, qızcığaz bu soyuğa tab gətirəcəkmi?.. O, özü həyatın hər üzünə, soyuğuna, istisinə alışıq adamdır. Kür ona neyləyərdi ki, bu çayın ana qoynunda böyüməyibmi?!. Bir tərəfdən bu arxayınlıqla, digər tərəfdən uşağın dona biləcəyi təlaşıyla əl-qolunu sürətlə işə salırdı dəli dalğaların axını istiqamətində. Boylanıb ətrafına baxdı Əhliman müəllim. Sahildən nə qədər uzaq olduğunu gördü, amma bunu taleyin acı yazısı kimi də yozmadı hələ. Çayın tən ortasına düşmələri işi çətinləşdirdiyinin də fərqində idi, bütün ümidlərinə baxmayaraq.

Sahilə yan alaraq üzməyə çalışan Əhliman müəllimlə amansız dalğaların mübarizəsi kəsilmirdi. Sürətlə axan dalğalar ona istiqamət götürməyə imkan vermirdi. O, yana yön aldıqca su ortaya çəkirdi. Buz kimi soyuq su əynində olan bütün paltarlarını isladaraq bədənini ağırlaşdırırdı. Eyni vəziyyətdə Güldəstə idi ki, sanki ağırlığı get-gedə dəfələrlə artırdı. Hərdən hiss edirdi ki, uşağın əlləri soyuqdan donaraq boğazından üzülmək anındadır. Ona elə gəlirdi ki, sular, uşağı boynundan qoparmaq cəhdindədir. Bu qorxunun təsirindən özünü unudub yalnız uşağı düşünürdü. Tez vaxt itirməyərək bir əli ilə uşağın əllərini ovcunda bərk-bərk sıxaraq bir qolu üzərində üzməyə çalışırdı.Bu da onun sahilə doğru yan almasını lap mümkünsüz edirdi. Birdən sahilə toplaşan adamlara sataşdı gözləri. Qışqırmağa başladı:

- Kömək edin, batırıq!.. Kömək edin, ay camaat!.. Uşaq var yanımda, kömək edin... Taqətim kəsilir, kömək edin!..

Ağlına gələn bütün sözləri söyləməklə çaşqınlıqda olan adamları hərəkətə gətirəcəyinə ümid edərək var səsi ilə çağırırdı onları köməyə.

Soyuq su paltarlarının bütün ilmələrini islatmaqla qane olmayıb iliklərinə işləməyə başlayırdı. Indi də bədənin bütün hüceyrələri soyuğun amansız pəncəsində idi. Qolları donmağa başlayırdı artıq. Əlacsız qalan müəllim dalğalara tapşıraraq taleyini, qara taleyin ağuşu kimi, qara sularla qol-boyun vəziyyətdə axın istiqamətində sürüklənməyə buraxırdı özünü. Bu vəziyyətdə ən çox cəhd etdiyi bir şey uşağın qollarının boynundan açılmaması idi. Gözləri sahildəki adamların qara kölgələrinə dikilmişdi yalnız. Artıq anlayırdı ki, təkbaşına bu soyuğun, amansız dalğaların pəncəsindən qurtuluş yoxdur. Axı o, tək deyildi ki, var qüvvəsi ilə dalğalara qarşı gələrək üzüb sahilə yan ala biləydi. Boynunda uşağın bu qədər ağırlığı var idi... Bu, həm də, sadəcə, doqquz yaşlı uşağın ağırlığı deyil. Bir ailənin, bir kəndin, bir məktəbin, bir rayonun, bir ölkənin, bütün bəşəriyyətin ağırlığı idi üzərində. Bir müəllimlik, atalıq, insanlıq, etibar olunmuş bir adam məsuliyyəti idi bu ağırlığın altındakı... Ona şirin-şirin "baba" deyən məsum bir körpənin etimadı boğazına sarılmışdı bərk-bərk... Sahildəki adamları görməsəydi, son hesab edə biləcəyi bu anda Allaha şükürlər oxumağa başladı:

- Allahım, şükürlər olsun sənə ki, uşaqların ancaq biri yanımdadır... İkisi burda olsaydı, indi çoxdan həlak olmuşduq.

Allahın mərhəmətinə sığındı dalğaların mərhəmətsiz ağuşunda son dəqiqələrini gözünün önünə alan müəllim. Canı soyuqdan elə sızlayırdı ki, sanki hər hüceyrəsinə iynə sancırdılar. Bu həm də yalnız soyuqdan bir sızıltı deyildi. Özündən əvvəl iki bacısını itirmiş müəllimin qocalıb dərdlər altında iki büklüm olan anasını son övlad olaraq bu

amansız “Ana Kür” dediyi çayın mərhəmətsiz suları kimi taleyin axınına yalnız buraxmaq qorxusunun sızıltısı idi.

Elə bu anda gözlərinə işıq gəldi. Gördü ki, kimsə sahildə quş kimi qanadlanıb özünü atdı suya...

***

Bu, Dəyanət idi. Soyuğu yadından çıxarıb yalnız çayın tən ortasından əzablı haray gələn nöqtəni hədəf alaraq yüyürən Dəyanət...

Dəyanət çayın orta nöqtəsindən sahilə hec cür yaxınlaşa bilməyən kişini hədəfləyərək özünü suya atdı. Kürün soyuq sularından yüksələn haray səsi buzdan yonulmuş bir ox kimi qəlbinə saplanırdı. Heç nə düşünə bilmirdi, nə suyun bu qədər dondurucu soyuğunu, nə adamların niyə durub baxdıqlarını, suya niyə atılmadıqlarını, nə də geriyə dönə biləcəkdimi, onu... Düşündüyü bircə şey haraya çağıran vardı, onu qurtarmaq istəyi idi. Dəyanət çayda iki nəfərin olduğunu bilirdi, amma kişinin ürəkdağalayan fəryadına görə onu qurtarmaq üçün üzürdü onlara sarı. O birisi kim idi, iki nəfəri birdən xilas edə biləcəkdimi, bunları da düşünmək iqtidarında deyildi. Zor-güc dalğaları yara-yara öz cavan gücünü qara suların qüvvəsinə qarşı qoyaraq hədəfə yaxınlaşırdı. Səs artıq kəsilmişdi. Yaxınlaşanda gördüyü bu oldu ki, suyun üzündə donub qalan kişinin gözləri üzünə zillənib sanki, amma ondan bir nəfəs gəlmir. Qolları yana açılmış, suyun üzündə “balonka” gödəkcəsinin hesabına qala bilmişdi, sadəcə. Ondan yarım metr arxada isə bir qız uşağı da sukeçirməz gödəkcənin hesabına dalğaların üzərində yırğalanırdı. Kişinin qolunun biri uşağa tərəf uzadılmış, əli yarıbağlı vəziyyətdə qalmışdı... O biri qolu isə irəli uzanıb, sanki kimisə köməyə çağırırdı.

***

Əhliman müəllim qapqara dondurucu suların qoynunda onlara tərəf üzən qaraltıya ümid dolu gözləri ilə baxır, bir an onu nəzərlərindən qoymaq istəmirdi. Ona elə gəlirdi ki, nəzərlərini çəksə, xilaskarı yoxa çıxa bilər... Amma get-gedə özü artıq nə sağa, nə sola, nə də irəliyə hərəkət edə bilmirdi. Bədəni qollarının altına qədər tamam donmuş, hərəkətsiz qalmışdı. Su isə onun bu zəifliyindən daha artıq istifadə edib çəkib uşağı boynundan qoparmağa çalışırdı. Kürə düşdüyü yerdən beş yüz metr məsafədə axaraq uşağı bir an dəli dalğaların pəncəsinə buraxmayan müəllim qollarında da taqət qalmadığını, yavaş-yavaş uşağın əlinin əlindən üzüldüyünü hiss edirdi. Soyuq boyun damarlarını tamam dondurmuş, vəziyyətdən çıxa bilmək üçün artıq beyninin də qüvvəsi qalmadığı özünə açıq bəlli idi. Qəfil gələn dalğa uşağın donmuş qollarını asanlıqla onun boynundan ayırıb, müəllimi yarım metr uzağa atdı.

O, özünə kənardan baxırdı artıq. Bir əlini uşağa uzadırdı, bir əli ilə də uzaqdan üzüb gələn qaraltını haraya çağırırdı. Cismi isə donub suyun üzərində yırğalanırdı. Alacalanmış gözlərində son ümid donub qalmışdı. Əlini uşağa uzatsa da, tuta bilmirdi onu. Nə qədər haraylasa da, səsinə səs verən də yox idi... Amma yenə də uşağı tutmaq cəhdindən qalmırdı, özü isə tamam yadından çıxmışdı artıq... Axır köməyə gələn oğlan yaxınlaşırdı. O isə qışqırırdı:

- Uşağı xilas elə, uşaq sağdır!..

Oğlan üzüb uşağı boynuna aldı, amma, deyəsən, onu heç eşitmirdi də... Bir anlıq durub suyun üzündə onun donmuş gözlərinə baxdı, sonra çevrilib özünü çırpdı dəli dalğaların qoynuna, üzüb getdi...

***

Dəyanət hədəf götürüb köməyinə gəldiyi adama yaxınlaşanda onun artıq donmuş vəziyyətdə qaldığını, geniş

açılmış gözlərinin düz sifətinə dikildiyini gördü. Amma bu gözlərdə həyat nişanəsi yox idi artıq. Qəfildən suyun üzərində dalğaların qoynunda yırğalanan uşaqdan səs çıxdı:

- Əmi, məni xilas elə, donuram...

Uşağın sağ olduğunu bilən Dəyanət vaxt itirmədən, donmuş insana acımağa belə zaman ayırmadan qızı aldı boynuna, dedi:

- Bərk-bərk yapış boynumdan.

Uşağın qollarını çənəsinin altında möhkəm çarpazlayıb sinəsini verdi dalğaların qara köksünə. Üzdükcə bədənindəki hərəkət qanını dövr etdirirdi. Amma elə ki, dalğalar güc gəlib su istiqamətində onu axıdanda buzlamağa başlayırdı. Sahilə yaxınlaşmağa otuz metr qalmış canına dəhşətli bir qorxu doldu. Bədəni çox buzlayırdı, uşağı itirəcəyindən qorxurdu. Qışqırmağa başladı:

- Ay camaat, kömək edin. Atın özünüzü suya... Uşağı alın əlimdən.

Nə qədər qışqırsa da, sahildə ora-bura qaçışan insanların mənasız hay-küylərindən bir ümid işığı sezilmirdi. Anlaya bilmirdi, niyə onlar atılmırlar suya... Bu ümidsiz anda Dəyanətin yeganə təsəllisi sahilə yaxın olması idi. Arxada qoyduğu o qədər məsafəni nəzərində canlandıraraq qarşıdakı çətinliyi aşa biləcəyi ümidini alovlandırırdı. Axır sahilə iki metr qalmış adamlardan biri əlindəki kəndiri suya atdı. Dəyanət yapışmaq istəsə də, dalğa çəkib apardı kəndiri. Kəndir bir də atıldı. Bu dəfə qolunun üstünə düşən kəndirdən digər əli ilə cəld yapışa bildi. Çəkib, uşaq boynunda, onu çıxardılar sahilə. Adamlar ağlaşır, mənasız səs-küy salırdılar. O, isə donmuş vəziyyətdə olduğundan dişi dişinə dəyirdi. Uşağı artıq bir paltonun arasına bükmüşdülər. Onun da gödəkcəsini çiyninə saldı kimsə. Dili söz tutmurdu. Qaçıb mindi qara mersedesə... Güzgüdə gözünə sataşan sifəti onun səhərki halını - alnında islanıb qıvrılmış saçlarını, gömgöy göyərmiş dodaqlarını, təlaşdan alacalanmış gözlərini yadına

saldı. Amma dayanıb düşünməyə taqəti qalmamışdı. Maşını işə salıb, körpüdən bir az enib, irəlidə yolu geriyə dönərək hadisə yerindən uzaqlaşdı.

***

Dərs çoxdan başlamışdı artıq... 5 nömrəli məktəbin direktoru Bilal müəllimin mobil telefonuna zəng gəldi. Sabirabad Təhsil Şöbəsindən idi:

- Bilal müəllim, sizin məktəbdə Əhliman müəllim işləyir?

- Bəli, niyə soruşursunuz?

- Müəllimin maşını Kürə düşüb. Yanındakı məktəbli xilas olub, amma özü həlak olub. Başınız sağ olsun.

Bilal müəllim donub qaldı. Bildi, zarafat deyil... Qarşısına ilk çıxan Babaxan müəllim oldu. Sanki danışdığının fərqində deyilmiş kimi:

- Əhliman Kürə düşüb, boğulub, - deyə bildi Bilal müəllim.

- Yaxşı, burax zarafatı, dərsə gecikir yenə?..

- Zarafat deyil...

Həmişə gülə-gülə etdiyi zarafat qəfil acı hıçqırıq kimi qopdu Babaxan müəllimin köksündən, məktəbin divarlarında cingildədi....



## SAYTLAR SUSMUR...
## (Verilən məlumatların təhriflərinə toxunmadan təqdim edirik.)

**Опубликовано: 5 дек. 2014 г.**

Sabirabad rayonunda faciə baş verib. APA TV-nin Mil-Muğan bürosunun məlumatına görə, Cavad kənd sakini, Sabirabad şəhər 4 saylı orta məktəbin müəllimi, 1957-ci il təvəllüdlü Əhliman Hüseynov "VAZ 2107" markalı avtomobili ilə səhər saatlarında məktəbə gedərkən kənd ərazisində Kür çayı üzərindəki körpüdən çaya düşüb. Əhliman Hüseynov boğularaq ölüb. Onun avtomobildə olan qohumu, 3-cü sinif şagirdi Hüseynova Güldəstə Fuad qızı isə sakinlər tərəfindən xilas edilib.

Hazırda avtomobilin və sürücünün meyitinin sudan çıxarılması üçün hadisə yerində FHN-in sularda xilasetmə xidmətinin dalğıcları işləyirlər.

***Menbe: Apa Tv***



**Azərbaycanda tükürpərdici hadisə: Müəllim şagirdini xilas etdi, özü öldü - TƏFƏRRÜAT**

"O ağlayaraq məktəbə getmək istəmədiyini bildirib".

Sabirabad şəhərini Cavad kəndi ilə birləşdirən, yeni istifadəyə verilmiş körpüdən 1957-ci il təvəllüdlü, Cavad kənd sakini, Sabirabad 5 saylı məktəbdə müəllim işləyən Əhliman Hüseynov ona məxsus "07" markalı maşınla Kür

çayına düşüb və maşındakı qonşusunun qızı, 9 yaşlı Hüseynova Güldəstəni xilas edərək özü suda batıb.

**Oxu.Az**-ın xəbərinə görə, bu barədə sosial şəbəkədə Sabirabad sakini Sahib Rüstəmli məlumat paylaşıb.

S.Rüstəmlinin yazdığına görə, Ə.Hüseynov hadisə baş verdiyi gün hər zaman olduğu kimi, çalışdığı şəhər məktəbinə yaşadığı kənddən 4 şagirdini də gətirib. Lakin, həmin gün şagirdlərdən 3-ü dərsə getmək istəməyib: "Əhliman yaxşı üzə bilsə də, Güldəstəni maşından çıxararaq xilas etmək üçün çox əziyyət çəkib. Əhliman qışqırmağa başlayıb ki, "Kömək edin, daha taqətim tükənir". Bunu eşidənlər maşınlarını saxlayaraq Kür aşağı sahillə ona tərəf qaçmağa başlayıblar. Qaçanlar arasında Türkədi kənd sakini Şıxəliyev Dəyanət Maqsud oğlu da olub. Dəyanət qızcığazı xilas edən Əhlimanın bərabərinə çatdıqda heç kimə qulaq asmadan suya atılıb və onlara tərəf üzməyə başlayıb. Əhliman qızı Dəyanət onlara 2-3 metr qalmış ona tərəf itələyərək batıb. Dəyanət isə uşağı tutub sahilə doğru üzməyə başlayıb. Ancaq onun da taqəti tükənməyə başlayanda ona tərəf kəndir atıblar. Beşinci cəhddə Dəyanət kəndiri tuta bilib və özü də, qız da xilas olub.

Əhliman şəhər məktəbində işlədiyindən kənddən həmişə 4 şagirdi də gətirirmiş. Həmin gün şagirdlərdən 3-ü dərsə getmək istəməyib. Dərsə getmək istəməyən şagirdlərdən biri Güldəstənin kiçik qardaşı olub. Valideynləri nə qədər təkid etsələr də, o ağlayaraq məktəbə getmək istəmədiyini bildirib. Şagirdlər dərsə getmək istəmədiklərindən Əhliman yəqin ki, onlardan xəbər tutana qədər gündəki rejimindən daha çox vaxt itirdiyinə görə tələsib və maşını bərk sürüb".E.Ə.

***www.oxu.az***

# ŞAGİRDİNİ XİLAS EDƏRKƏN HƏLAK OLAN MÜƏLLİMİN QƏHRAMANLIQ HEKAYƏSİ

***Tarix**: 09/12/2014 16:03*

Sabirabadda Nizami Gəncəvi adına 5 saylı orta məktəbdə əmək müəllimi işləyirdi. Hər gün Cavad kəndindən rayona dərsə gələrdi. Yol uzaq və narahat olduğundan oğlanları ona “07” alıblar ki, ataları bu yaşında rahatlıq tapa. Və hər gün elə bu maşında böyük qızı Aynurun iki uşağını və onun qaynı Fuadın qızlarını da götürüb məktəbə apararmış. Təmənnasız. Uşaqlar soyuq havada kəndin palçığına batmasınlar deyə.

O gün, dekabrın 6-da da Əhliman müəllim adəti üzrə sübh tezdən oyanıb namazını qılır və məktəbə getməyə hazırlaşır. Ondan əvvəlki gün yatana qədər Yasin surəsini oxumuşdu. Əvvəlkindən də tez yatmışdı. Saat doqquzda. Səkkizin yarısı maşını işə salır ki, məktəbə getsin. Amma maşın işə düşmür ki, düşmür. Bir təhər işə salır. Əvvəl gedir Fuadgilə. Aytacla Güldəstənin dalınca. Aytac adəti üzrə dərsə getmək istəmədiyini deyir. Anası Aytən nə qədər israr etsə də, uşaq iki ayağını bir başmağa dirəyir ki, məktəbə getməyəcəm. Aytən xanım da israr eləmir. Kənd məktəbində ibtidai sinif müəlliməsi olan Aytənin o gün dərsi yoxmuş. Aytacın onun yanında qalacağını deyir və Güldəstənin gödəkçəsini geydirir, papağını başına qoyur, maşına mindirir.

Həmin gün hava şaxtalıymış. Rayona gedən yolda, Kürün üstündəki körpüdən keçərkən maşının təkərləri buzlu yoldan sürüşür. Bir sağa, bir sola gedən maşın körpünün sol tərəfindəki qoruyucu çəpərə çırpılır. Maşının

zərbəsinə tab gətirməyən armatur çəpər qopub maşınla bərabər çaya aşır.

Evdə atasının gecikdiyini görən Aynur atasına zəng edir. Əhliman müəllimə zəng çatmayınca narahat olmağa başlayır. Baş vermiş qəzadan xəbərsiz Aynur uşaq dərsə gecikdi deyə, danışmağa başlayır. Məktəbdən ona zəng gəlir...

Əhliman müəllim isə 9 yaşlı Güldəstəylə bərabər Kürə düşür. Sonradan özünə gələn Güldəstə anasına o anı belə xatırlayıb. Sən demə, körpüdən aşan kimi Əhliman müəllim cəld maşının qapısını açıb. Öz canını unudub balaca qızcığazı təsəlli edib: “Güldəstə, bala, qorxma. Çiynindəki çantanı at, gəl qucağıma”. Çantasını çıxaran Güldəstəni maşına dolan su havaya qaldırır. Əhliman müəllim onu qucağına alıb maşından çıxır. Və ölüm-dirim mübarizə başlayır. Bir xeyli məsafəni bir qucağında uşaq, bir əliylə üzə-üzə kömək çağırır...

Bu vaxt Allah onlara Tükədi kəndindən rayona gedən Dəyanəti yetirir. Dəyanət deyir ki, saat səkkiz olardı. Uzaqdan gördüm ki, nəsə çaya düşdü: “Bilmədim nədi. Körpüyə yaxınlaşanda gördüm ağ maşındı, batır. Maşından düşdüm. Çayın sahiliylə qaçdım. Maşın çayın üzündəydi. İçindən əvvəl bir kişi, yanında da uşaq çıxdı. Tez kurtkamı, poliverimi, ayaqqabımı çıxarıb suya tullandım. Üzməyi yaxşı bilirəm. Hardasa əlli metr üzüb onlara çatdım. Sahildəykən Əhliman müəllim kömək istəyirdi. Amma mən yanına çatanda artıq donmuşdu. Su çox soyuğuydu. Hər ikisi “balonka” kurtka geyindiyindən suda batmamışdılar. Uşağı götürdüm, qayıtdım dala. Boynuma alıb sahilə tərəf üzdüm. Artıq camaat da toplaşmışdı. Sahilə 3 metr qala kəndir atdılar. Kəndirdən tutub sahilə çıxdıq”.

Əhliman müəllimin hər gün məktəbə dörd uşaq apardığını bilən insanlar təşvişə düşürlər. Əvvəl xəbər

Fuada çatır. Tez yoldaşına zəng edir. Aytacın evdə, Güldəstənin maşında olduğunu öyrənən ata dəliyə dönür. Aytən deyir, telefonda Fuad ona Əhliman müəllimin maşının çaya aşdığını eşidəndə ayaqları tutulub:

"Nə edəcəyimi bilmədim. Boğuldum, səsim çıxmadı. Bir otaqdan digərinə sürünə-sürünə keçdim. Qapıya çatanda gördüm qohum-əqrəba həyətdədirlər. Yoldaşım növbəti dəfə zəng edib uşağa qalın paltar gətirməyimi istəyincə ürəyim yerinə gəldi. Bildim ki, balam sağdı. Yoxsa, niyə təzə paltar istəsinlər ki?".

Xəstəxanaya çatınca Güldəstəyə və onun qəhrəmanı Dəyanətə artıq ilk yardım edilmişdi. "Getdim gördüm ki, temperaturu düşüb aşağı. Tir-tir əsir. Ana dözər buna?! Dözə bilmədim. O biri palataya güclə atdım özümü. Yavaş-yavaş uşaq özünə gəldi. Dedilər, sudan çıxanda ilk sözü "qoymayın ölüm" olub. Sağ olsunlar, ilk yardımı kənd camaatı eləyib. Rayonda uşağa baxan həkimlər uşağın yaxşı olduğunu desələr də, ürəyimiz durmadı. Gətirdik Bakıya. Həkim baxdı, dedi, "Maşallah, uşağınız sağlamdı. Ucuz qurtulmusunuz. Şükür, balam sağdı, amma hardan ucuz qurtulduq?! Dağ kimi adam getdi. Güldəstə onun yadigarıdır".

Güldəstəyə gəlincə, onsuz da özünə qapalı olan uşaq, o gündən sonra daha da susqunlaşıb. Anası deyir ki, təzə vaxtlar heç danışmayıb: "İki gecə yuxudan ağlayıb durdu. Üzünün nəmliyindən bilirdim ki, ağlayıb yenə. Sonra yenə başını qoyub yatırdı. Şükür, bu gecə rahat yatıb. Həkimin yazdığı sakitləşdirici dərmanı da içir. Uşaqlarla da oynamağa başlayıb. Əhliman müəllimin nəvələri də bizdədi. Onlarla oynayır. Psixoloq dedi ki, unudacaq, amma yaddaşında xatirə kimi qalacaq."

Həkim Güldəstəylə kimsənin bu haqda danışmamağı tapşırıb. Uşağı incitməmək üçün sadəcə anasının telefonunda olan şəkillərə baxdıq. Uşaqlar Güldəstə olan

otağın qapısını açıb-bağladıqca otağa boylandım. Güldəstə nəsə yazırdı.

- Bir qədər də keçsin məktəbə yollayacam. Özü də dərsə getmək istəyir. Yaxşı oxuyan uşaqdı. İstəmirəm dərslərindən geri qalsın. O gün qaynımgil çayın kənarından çantasını tapıb gətiriblər. İki gün suda qaldığından kitabları ələ gələsi deyil. Görəndə pis olar deyə, çantasını da atmışam pilləkənin altına. Güldəstəyə ilkin psixoloji yardım edilib. Bundan əlavə bir həftə də psixoloji yardım almalıdır. O qəzadan geriyə travma qalmasın deyə. Güldəstədən əlavə daha iki övladı olan Aytənin hələ ki, rayona getməyə imkanı yoxdu. Əhliman müəllimlə yaxın qohum olduqlarından ailənin başı Əhliman müəllimin başsız qalmış ailəsinə qarışıb.

Deyir və ağlamaq istəyir. Amma ağlaya da bilmir...

- Hadisədən sonra iki gün ağladım. Sonra dedilər, Allah balanı sənə ikinci dəfə qaytarıb, ağlama, Allaha ağır gedər. Qızım aprelin 28-də doğulub. Amma Allah o gün balamı ikinci dəfə mənə verdi. Artıq ad gününü dekabrın 6-ı qeyd edəcəm. Bircə, Əhliman müəllim də tapılsaydı...

Əhliman müəllimin evindəyik. Həyat yoldaşı Tərifə xala qarşıladı bizi. Kimsiniz, nəçisiniz demədən boynumu qucaqlayır. Ağlayır-ağlayır. Sonra ağzını qulağıma yaxınlaşdırır, “kömək eyləyin, qızım, nolar, kömək edin Əhlimanı tapsınlar” deyə yalvarır.

Əhliman müəllim 4 uşaq atası olub. İki oğlu, iki qızı var. Balaca qızı Şəfanın toyunu hələ 4 ay əvvəl etmişdi. Son beşiyi Xalidin isə toyunu görmədi. Əhliman müəllimin meyiti hələ də tapılmadığından, evdə ancaq qadınlarıydı. Kişilər isə hər gün günə, doğandan batana qədər çayın kənarına gedirlər.

Sakit ailəsi var Əhliman müəllimin. Elə kədərlərini də sakitcə yaşayırdılar. Dörd gündü meyit tapılmadığından hələ həyətdə mağar da qurmamışdılar. 85 yaşlı Xanım

nənə "Əhliman gəl" deyə fəryad qoparır. Qarının ürəyi dözmürdü övlad acısına. Elə Əhliman müəllim də Şəfanın toyunda ürəyi istəyincə deyib gülməmişdi. Bacının yasını tuturdu. Amma nə etmək olar, xeyirlə şər qardaşdı.

Böyük qızı Aynur təmkinliydi. Onun da digərləri kimi tək istəyi atasının tezliklə tapılıb torpağa verilməsidir: "Çox gözəl ataydı. İndiyəcən dilindən bir kobud söz eşitmədik. Halal zəhmətiylə baxdı, böyütdü bizi. Hamımıza təhsil verdi, savad verdi. Bir sözündən incimədik. Kaş bizi döyəydi, kaş bizi söyəydi, amma yaşayardı. Həmişə fəxr eləmişəm. İndi də fəxr edirəm atamla. Həmin günü möhkəm şaxta vardı. Həmin körpünün üstü buz bağlamışdı. Səkkizə on beş dəqiqə qalmış evdə saat dayandı. Sonra öyrəndim ki, hadisə də səkkizə on beş dəqiqə qalmış baş verib. Atama yaman üşüyən idi. Dörd gündür buz kimi suda nə edir görəsən..." . Və hönkürür.

Ağlamaqdan səsi tutulmuş Xanım nənənin istəyi odur ki, oğlunun meyiti tezliklə tapılsın. Deyir, oğlumu torpağa basdırıb, heç olmazsa bir qəbri olsun. Ziyarət etməyə. "Altmış dörddə bir balamı itirdim. Ondan dörd ay sonra yoldaşım rəhmətə getdi. Dörd yaşında bir, beş yaşında bir balam yetim qaldı. Saxlayıb, böyütdüm atasız. Səkkiz ay əvvəl bir balamı da verdim torpağa. İndi də bu getdi. Balam batdı suda. Göydə Allaha, yerdə sizədir ümidim. Kömək edin, balamın meyiti tez tapılsın. Ətimi yedim, sümüyümə dayandım, bala. Mən bu dərdə dözə bilmərəm", deyir və əllərini göyə qaldırıb ağı deyir.

"Mən ailəmdən heç vaxt inciməmişəm. Çox gözəl ailəm olub. Ayağının altındakı qarışqanı da əzməzdi. Elə bir adamıydı Əhliman. Otuz iki ildi onunla ailə qurmuşam. Heç vaxt incitmədi məni. Səkkizin yarısı onu sağ-salamat yola saldım. Doqquza on beş dəqiqə işləmiş qara xəbəri gəldi üstümə. Dörd övlad böyüdüb. Ağıllı, kamallı, savadlı. Qonum-qonşudakı uşaqların hamısı ona "baba"

deyirdilər. Bircə meyitini tapıb torpağa tapşırım. Balalarım gedib atalarını ziyarət etsinlər". Barmaqlarını sıxa-sıxa danışır Tərifə xala:

Dəyanətlə görüşəndə Güldəstənin atası Fuad da yanındaydı. Qızının xilaskarını qiyabi tanısa da, şəxsi münasibətləri olmayıb. Qonşu kənddən Maqsudun oğlu olduğunu bilirmiş sadəcə. Hadisədən dörd gün keçsə də, Fuad baş vermiş qəzanın şokunu hələ də ötürməmişdi. Bir kəlməlik söz dedi: "Ölənə qədər borcluyam Dəyanətə".

Həmin körpünün üstündən keçib rayona qayıdırıq. Hava qaraldığından Fövqəladə Hallar Nazirliyinin əməkdaşları bu günlük gərgin işlərini yekunlaşdırmışdılar. Sabah yenidən başlayacaqlar axtarışa.

Çayın kənarında isə tonqal yanırdı. Əhliman müəllimin oğlanları yandırmışdı...

***Faktxeber.com, Avrasiya.net***



## AZƏRBAYCANDA ŞAGİRDİNİN XİLASI NAMİNƏ ÖZÜNÜ QURBAN VERƏN MÜƏLLİMİN CƏSƏDİ TAPILDI 04.05.2015. 00.42



Kür çayının üstündəki körpüdən maşını ilə çaya düşən və bu hadisə zamanı 9 yaşlı şagirdini xilas edərkən özü boğulan orta məktəb müəllimi Əhliman Hüseynovun meyiti 5 aylıq axtarışlardan sonra nəhayət mayın 3-də tapıldı.

Bu barədə **Modern.az** saytına Sabirabad rayonu Nizami Gəncəvi adına 5 nömrəli orta məktəbin müəllimləri xəbər veriblər.

Məlumata görə, Əhliman müəllimin meyiti Kür çayına düşdüyü yerdən 3-4 km uzaqda, Məmişlər kəndinin ərazisində tapılıb.

Xatırladaq ki, o müdhiş hadisə havaların soyuq keçdiyi 5 dekabr 2014-cü il tarixində baş vermişdi Həmin gün Sabirabaddakı 5 nömrəli orta məktəbinin texnologiya müəllimi, 1957-ci il təvəllüdlü Əhliman Hüseynov “07” markalı “Jiquli”si ilə dərsə gedirmiş. O, qohumunun azyaşlı övladı, 3-cü sinif şagirdi Güldəstə Hüseynovanı da maşınına götürübmüş. Kürün üzərindəki yeni salınmış körpüdən keçəndə maşın buz bağlamış yolda sürüşüb və dəmir məhəccəri aşıraraq, çaya düşüb.

Azyaşlı Güldəstə hadisədən sonra xatırlayıb ki, çaya düşəndən sonra maşında Əhliman müəllim ona deyib: "Qızım, düşdük suya, çantanı çıxar kürəyindən". Maşının qapısını açıb, uşaqla bərabər atılıb suya. Uşağı boynuna alıb körpüdən 500 metrə qədər məsafəyədək üzərək sahilə yan almağa çalışıb. Amma Kürün suyu gur olduğundan və çox soyuq olması səbəbindən heç cür sahilə yaxınlaşa bilməyib.

Əhliman müəllim fəryad edərək səsini yoldan keçənlərə duyurmaq istəyib. Yoldan ötən maşınlar dayanıb, adamlar axışıb Kürün sahilinə, lakin onu xilas etmək hamıya mümkünsüz görünüb. Hamı bir-birindən kömək istəsə də, kimsə cürət edib suya girə bilməyib. Yalnız 22 yaşlı bir gənc oğlan – Dəyanət Şıxəliyev özünü soyuq çaya ataraq, Əhliman müəllimə tərəf üzüb. O, azyaşlı Güldəstəni suyun üzündə saxlamağa müvəffəq olan müəllimdən alaraq, sahilə üzməyi bacarıb. Əhliman Hüseynovun özü isə suda batıb...

Artıq 5 ay idi ki, Əhliman Hüseynovun meyitinin axtarışları davam etdirilirdi. 2014-cü ilin son ayında boğulan Əhliman müəllimin cəsədi 2015-ci ilin mayında tapıldı.

**A.Qorxmaz**



# ŞAGİRDİNİ XİLAS EDİB ÖZÜ KÜRDƏ BATANIN CƏSƏDİ 5 AY SONRA TAPILDI



***Təhsil Nazirliyi rəhbərliyinin tapşırığı ilə Hüseynovlar ailəsi üçün yeni ev tikilib***

Ötən ilin dekabr ayının 7-də səhər dərs dediyi məktəbə gedərkən Kür çayının Sabirabaddan keçən hissəsində körpüdən suya düşüb batmaqda olan maşından 9 yaşlı məktəbli Güldəstə Hüseynovanı xilas etsə də, özü sulara qərq olmuş 57 yaşlı müəllim Əhliman Hüseynovun cəsədi bu gün tapılıb.

Cəsəd müəllimin batdığı yerdən 3 km aralıda - Sabirabad rayonunun Məmişlər kəndində çayda balıq tutan kənd sakinləri tərəfindən aşkarlanıb. Cəsəd balıqçıların qarmağına ilişib. Yaxınları onu paltarlarından tanıyıb. Xatırladaq ki, bir çox media orqanlarında Ə.Hüseynovun

cəsədinin axtarışlarının dayandırıldığı barədə məlumatlar yer alsa da, onlar həqiqəti əks etdirmir. FHN-in müvafiq qurumları və yerli sakinlərin axtarışları bu 5 ayda bir gün olsun belə dayanmayıb.

Onu da qeyd edək ki, Cavad kənd sakini olan mərhum əmək təlimi müəlliminin mənzil şəraitinin çətin olduğunu öyrənən kimi Təhsil Nazirliyi rəhbərliyinin tapşırığı ilə Hüseynovlar ailəsi üçün yeni ev tikilib.

***Virtualaz.orq***



## NAZIRLIK ÖZÜNÜ QURBAN VERƏN MÜƏLLIMIN AILƏSINƏ EV TIKDI



Təhsil Nazirliyinin əməkdaşları şagirdini xilas edərkən həlak olmuş müəllimin ailəsinə başsağlığı verib.

***Müəllif***
***Zülfiyyə Qurbanova***
***Kateqoriya***
***Təhsil***

Təhsil Nazirliyi Sabirabadda şagirdini xilas edərkən çayda boğulan müəllimin ailəsinə ev tikib. ANS PRESS-in məlumatına görə, bu barədə Nazirliyin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov sosial şəbəkədə yazıb:

"Bu gün Sabirabad rayonunun Cavad kəndində 5 ay bundan əvvəl öz həyatı hesabına məktəbli qızı xilas etmiş

Əhliman müəllimin hüzr mərasimində iştirak etdik. Təhsil Nazirliyinin rəhbərliyinin başsağlığını Əhliman müəllimin ailəsinə çatdırdıq. Bu səfər zamanı eyni zamanda Əhliman müəllimin ailəsi üçün Təhsil Nazirliyi tərəfindən yeni inşa olunan mənzilə baxdıq. İnşallah bu mənzil yaxın iki aya istifadəyə veriləcək.

Allah rəhmət etsin!"

Kür çayında batan və itkin düşən 1957-ci il təvəllüdlü Hüseynov Əhliman Ağalar oğlunun meyiti 4 may tarixində batdığı yerdən 3-4 kilometr aralıda tapılıb. Xatırladaq , 05 dekabr 2014-cü ildə Sabirabad şəhər 4 saylı orta məktəbin müəllimi, Əhliman Hüseynov “VAZ 2107” markalı avtomobili ilə səhər saatlarında məktəbə gedərkən Sabirabad rayonunun Cavad kəndi ərazisində Kür çayı üzərindəki körpüdən çaya düşüb. Həmin vaxt avtomobildə olan qohumu, 3-cü sinif şagirdi Hüseynova Güldəstə Fuad qızı xilas edilsə də, sürücünü xilas etmək mümkün olmayaıb. Onun meyitinin axtarışları bir nəticə vermədiyindən axtarışlar dayandırılıb.

***Mənbə***

**ANS PRESS**

(Saytda yanlış olaraq müəllimdən əlavə sürücünün də tələf olduğu bildirilir. Halbuku maşının sürücüsü Əhliman müəllim özü idi.– K.Nəhmətova)

# MÜNDƏRİCAT

Son sözə ön söz ..........................................................
Özünü şagirdinə qurban verdi ......................................
Dəyanət (hekayə)........................................................
Saytlar susmur… .......................................................